Azərbaycan, № 270.- S.8.
**10 dekabr 2023-cü il**

# Prezident seçkiləri Azərbaycanı yeni hədəflərə daha da yaxınlaşdıracaq



**"Azərbaycanda ilk prezident seçkiləri 1991-ci ilin sentyabrında baş tutmuşdu və bu seçkilərin keçirildiyi vaxtda Azərbaycanın Qarabağ bölgəsində separatçı qondarma rejim yaradılmışdı. Bu o demək idi ki, 1991-ci ildə keçirilən ilk prezident seçkiləri zamanı seçki prosesi ölkənin bütün ərazisini əhatə etməmişdi. İndi Azərbaycanın müstəqillik tarixində ilk dəfə seçkilər ərazi bütövlüyümüzün təmin olunduğu, suverenliyimizin bütün ərazilərimiz boyunca bərpa olunduğu bir şəraitdə keçiriləcək".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat hesab edir ki, ərazi bütövlüyümüzün təmin olunmasından sonra ilk olaraq məhz prezident seçkilərinin keçirilməsi çox məntiqlidir və tarixi əhəmiyyət kəsb edir. Belə ki, bütöv Azərbaycanda prezident seçkilərinin keçirilməsindən sonra digər prioritetlərə daha rahat, səmərəli çatmaq imkanı olacaq. Yəni ərazi bütövlüyümüzün bərpa olunduğu, suverenliyimizin ölkəmiz boyunca dönməz və etibarlı şəkildə təmin edildiyi tarixi şəraitin özü də çox mühüm bir resursdur.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev ölkəmizin son 200 ildən artıq bir tarixində yeni səhifə açmağı, tarixdə ilk dəfə olaraq itirdiklərimizi geri almağı bacarıb və bu zaman iradə, güc nümayiş etdirib. "Bu baxımdan məhz indiki şərtlər daxilində prezident seçkilərinin olması məntiqli və ədalətlidir. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, bu həm də zəfər seçkisidir, yəni zəfərdən sonra ölkəmizin bütün ərazilərində keçirilən ilk seçkidir. Bu, bir daha xalqımızın ölkə rəhbərinə dəstəyinin ifadə olunacağı seçkidir. Azərbaycan xalqı hər zaman ölkə prezidenti İlham Əliyevin ətrafında sıx birləşib. 2020-ci ildə isə bu həmrəylik daha aydın müşahidə olundu", - deyə o əlavə edib.

E.Mirbəşiroğlu hesab edir ki, eyni həmrəylik, ölkə rəhbəri ətrafında eyni dərəcədə sıx birləşmə 2024-cü il fevral ayının 7-də keçiriləcək seçkilər zamanı da müşahidə olunacaq. Nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyevin əldə etdiyi nəticələr təkcə ölkəmiz, Cənubi Qafqaz regionu üçün deyil, bütün dünya üçün çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycan kifayət qədər təsirli rol oynadığı beynəlxalq siyasi və iqtisadi əməkdaşlıq sistemində yeni bir obrazda çıxış edir.

Deputat vurğulayıb ki, prezident seçkilərindən sonra Azərbaycan bu yeni obrazını daha aydın ifadə edəcək, daha təsirli rol oynayacaq: "Ayrıca olaraq Azərbaycanın qarşısında yeni inkişaf hədəfləri mövcuddur və yeni vektorlar açılmaqdadır. Növbədənkənar prezident seçkilərinin keçirilməsi bu hədəflərimizə daha səmərəli çatmağa imkan verəcək. Bu baxımdan hesab edirəm ki, 2024-cü il fevralın 7-də keçiriləcək seçkilər Azərbaycan dövlətinin, xalqının həyatında, tarixində çox təsirli, müsbət rol oynayacaq və ölkəmizin daha güclü obrazının dünyaya təqdim olunmasını şərtləndirəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*